# 8 NOYABR ZƏFƏR GÜNÜDÜR

45/46 (1248) • 3-16 noyabr 2022-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


## "YAXIN GƏLƏCƏKDƏ DƏ BİZİM ƏMƏKDAŞLIĞIMIZ GENİŞLƏNƏCƏK, YENİ XARAKTER VƏ YENİ DİNAMİKA ALACAQ"



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında deyib.

Prezident İlham Əliyev Əlcəzair Prezidentini və hökumətini, bütün Əlcəzair xalqını Azadlıq Günü münasibətilə təbrik edib, bildirib:

- Mən bu gün şəhidlərin xatirəsini yad etdim, Şəhidlər memorialını, eləcə də Mücahidlər Muzeyini ziyarət etdim və gördüklərim mənə çox təsir etdi. Fransanın Əlcəzair xalqına qarşı törətdiyi zorakılığı, kütləvi qəddarlığı dünya heç zaman unutmamalıdır. Fransa yüz ildən çox bir müddət ərzində Əlcəzair xalqına qarşı çox dəhşətli müharibə aparmışdır. Bu müharibə 1,5 milyon əlcəzairlinin ölümü ilə nəticələnmişdir. Bu gün biz bu faciəni anaraq gələcəkdə belə faciələrin qarşısının alınması üçün əlimizdən gələni etməliyik.

Bu gün mən Sammitdə Qoşulmama Hərəkatının sədri kimi iştirak edirəm, lakin, eyni zamanda, bizim Ərəb Dövlətləri Liqasına üzv olan dövlətlərlə çox yaxşı münasibətlərimiz var. Əminəm ki, yaxın gələcəkdə də bizim əməkdaşlığımız genişlənəcək, yeni xarakter və yeni dinamika alacaq.

Biz Ərəb Dövlətləri Liqasına üzv olan ölkələrlə ikitərəfli əməkdaşlığa da xüsusi önəm veririk. Biz aramızda olan qarşılıqlı dəstəyi və həmrəyliyi yüksək qiymətləndiririk.

Azərbaycan da Əlcəzair kimi işğaldan əziyyət çəkib. Bizim torpaqlarımız otuz il Ermənistanın işğalı altında qalmışdı. Bütün bu işğal illəri ərzində biz həmişə ərəb qardaşlarımızın dəstəyini, İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin dəstəyini hiss edirdik. Azərbaycan da öz növbəsində bütün beynəlxalq forumlarda müsəlman qardaşlarımıza öz dəstəyini əsirgəməmişdir.

Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan beynəlxalq arenada mühüm rol oynayır. 120 ölkəni bir araya gətirən Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır. Azərbaycan 2019-cu ildən bu təsisatın sədridir və biz bütün üzv dövlətlərin yekdil səsi ilə seçilmişdik. Bu da bizim mövqeyimizə və siyasətimizə yüksək səviyyəli dəstəyi və rəğbəti nümayiş etdirir. Bizim sədrliyimiz bir daha yekdil qərarla 2023-cü ilin sonuna qədər uzadılmışdır. Biz bunu bir daha siyasətimizə verilən qiymətin əlaməti kimi görürük. Bizim sədrliyimiz COVID-19 dövrünə təsadüf etmişdir və biz bu məsələdə çox fəal idik. Azərbaycan koronavirusla bağlı 80-dən çox ölkəyə maliyyə və humanitar yardımı göstərmişdir.

İki il əvvəl Azərbaycan Ermənistan tərəfindən torpaqlarımızın iyirmi faizinin demək olar ki, otuz ilə yaxın davam edən işğalına son qoydu. Aparıcı beynəlxalq qurumların qətnamələrinə və qərarlarına baxmayaraq, Ermənistan bütün qərar və qətnamələrə məhəl qoymamış və Azərbaycanın ərazisinin demək olar ki, 20 faizini qanunsuz olaraq işğal altında saxlamağa davam etmişdi. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir, lakin bu qətnamələr heç vaxt icra olunmamışdır.

Bu isə bizi başqa bir vacib amilə gətirib çıxarır. Bu da BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmi ilə bağlıdır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Amma bizə gəldikdə bu qətnamələr otuz il ərzində kağız üzərində qaldı. Bu, ikili standartdır, bu, yolverilməzdir. Bu, beynəlxalq hüququn norma və prinsiplərinə, ölkələrin öhdəliklərinə selektiv yanaşmadır. Buna görə də ədalətsizlikdən və işğaldan əziyyət çəkmiş bir ölkə kimi Azərbaycan münaqişələrə dair yanaşmaların birləşdirilməsi işinə töhfə vermək üçün aktiv şəkildə fəaliyyət göstərir. Bütün münaqişələrə eyni mövqedən yanaşmaq lazımdır. Münaqişələrə yanaşmalarda ikili standart olmamalıdır. İşğal işğal adlandırılmalıdır.

İki il əvvəl Azərbaycan, qeyd etdiyi kimi, bu münaqişəyə son qoydu. Biz bunu öz gücümüzlə etdik. Biz BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququndan istifadə etdik və ərazilərimizi güc yolu ilə azad etdik. Biz Ermənistanı məğlub etdik. Ermənistan kapitulyasiya etməyə məcbur oldu. İndi isə bizim torpaqlarımız azaddır və biz torpaqlarımıza qayıtmışıq.

Bu gün Mücahidlər Muzeyini ziyarət edərkən mənə məlumat verildi ki, Fransanın işğalı zamanı fransızlar 5 milyondan çox mina basdırmışdı. Bu isə mənə bizim eyni ilə üzləşdiyimiz, hazırda əziyyət çəkdiyimiz işğal zamanı Ermənistan tərəfindən bir milyondan çox minanın basdırılmasını xatırlatdı. 2020-ci ilin noyabr ayında müharibə bitdikdən sonra minalar səbəbindən 260-dan çox azərbaycanlı həlak olmuş, yaxud ciddi yaralanmışdır. Biz bu işləri özümüz görürük. Biz torpaqlarımızı özümüz bərpa edəcəyik və artıq proses gedir.

* * * * *

Qeyd edək ki, Ərəb Dövlətləri Liqası 1945-ci il martın 22-də Misir, İraq, İordaniya, Livan, Səudiyyə Ərəbistanı, Suriya və Yəmən tərəfindən yaradılıb. Hazırda təşkilata 22 dövlət daxildir. Təşkilatın mərkəz-qərargahı Misirin paytaxtı Qahirə şəhərində yerləşir. Türkiyə təşkilatda daimi müşahidəçi statusuna malikdir.







## "QARABAĞ MÜNAQİŞƏSİ ARTIQ TARİXDƏ QALIB"



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə ikitərəfli görüşdə deyib.

O, dəvətə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə təşəkkür edib və bildirib:

- Bugünkü görüş bizim regional məsələlərə həsr edilib. Qarabağ münaqişəsinin nizamlanmasında oynadığınız rola görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. İki il bundan əvvəl imzalanmış üçtərəfli Bəyannamə çoxillik münaqişəyə son qoydu. İndi Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində danışmaq və hərəkət etmək vaxtı yetişib. Əlbəttə, biz bu məsələdə Sizin şəxsi rolunuzu yüksək qiymətləndiririk.

Qarabağ münaqişəsi artıq tarixdə qalıb. O, iki il bundan əvvəl həll edilib. Buna görə də bu baxımdan burada praktiki olaraq müzakirə edilməli məsələ yoxdur. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması isə, əlbəttə, çox ciddi addımlar tələb edən formatdır. Biz bu məqsədlərə nail olmaq işində bundan sonra da şəxsən Sizin fəal roluna və Rusiyanın roluna ümid bəsləyirik.

***

Oktyabrın 31-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyan ilə görüşü olub.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN, ERMƏNİSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN VƏ RUSİYA FEDERASİYASI PREZİDENTİNİN BƏYANATI

**Oktyabrın 31-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Bəyanat imzalayıblar.**
**Bəyanatı təqdim edirik.**
**“Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş Nazirinin və Rusiya Federasiyası Prezidentinin BƏYANATI**

**31 oktyabr 2022-ci il**

Biz, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 2022-ci il oktyabrın 31-də Soçi şəhərində görüşdük və 2020-ci il 9 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli üçtərəfli bəyanatların həyata keçirilməsinin gedişatını müzakirə etdik.

Azərbaycan-Ermənistan münasibətlərinin kompleks şəkildə normallaşdırılması, sülhün, sabitliyin, təhlükəsizliyin və Cənubi Qafqazın davamlı iqtisadi inkişafının təmin edilməsi naminə göstərilən bütün razılaşmalara dönmədən riayət edilməsinə sadiq olduğumuzu təsdiq etdik. Qalan məsələlərin, o cümlədən humanitar məsələlər blokunun təxirə salınmadan həllinə yönəlmiş əlavə səylər göstərmək barədə razılaşdıq.

Rusiya sülhməramlı kontingentinin yerləşdiyi zonada təhlükəsizliyin təmin edilməsinə mühüm töhfəsini qeyd edərək onun regionda vəziyyətin sabitləşməsinə yönəlmiş səylərinə ehtiyac olduğunu vurğuladıq.

Güc tətbiq etməkdən və ya onu tətbiq etməklə hədələməkdən çəkinmək və bütün problemli məsələləri BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə və həll etmək barədə razılığa gəldik.

Regionda davamlı və uzunmüddətli sülhə nail olmaq məqsədilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülh müqaviləsi bağlanmasına fəal hazırlaşmağın vacibliyini vurğuladıq. Mövcud işlənilən təkliflər əsasında məqbul həll yollarının axtarışını davam etdirmək barədə razılaşdıq. Rusiya Federasiyası buna hər vasitə ilə kömək göstərəcək.

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ictimaiyyətin, ekspert birliklərinin nümayəndələri və dini liderlər arasında Rusiyanın köməyi ilə dialoqu davam etdirmək üçün, həmçinin iki ölkənin xalqları arasında etimadı möhkəmləndirmək məqsədilə üçtərəfli parlamentlərarası əlaqələrin cəlb edilməsi üçün müsbət ab-hava formalaşmasının vacibliyini vurğuladıq.

Azərbaycan Respublikasının və Ermənistan Respublikasının liderləri Rusiya Federasiyasının bundan sonra da Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşmasına, Cənubi Qafqazda sabitliyin və tərəqqinin təmin edilməsinə hərtərəfli şərait yaratmağa hazır olmasını alqışladılar.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

***Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyan***

***Rusiya Federasiyasının Prezidenti Vladimir Putin”***

## “Azərbaycanda yaşıl transformasiya” konfransı keçirilir

Noyabrın 2-də Bakıda BMT-nin “Dayanıqlı İnkişaf Məqsədləri (DİM) dialoqları” təşəbbüsü çərçivəsində “Azərbaycanda yaşıl transformasiya” konfransı keçirilib.



Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov bu konfransın ölkəmizin “yaşıl inkişaf ilə bağlı göstəriciləri” üzrə inkişafını izləmək üçün və inkişafın əldə edilməsi istiqamətində təkliflərin verilməsində vacib rol oynayacağını bildirib.

Qeyd edib ki, Azərbaycan “yaşıl enerji”, “yaşıl inkişaf” baxımından layihələrin həyata keçirilməsini öz üzərinə götürüb. 2030-cu ilə qədər həyata keçiriləcək bu öhdəliklər “yaşıl enerji” balansında mühüm əhəmiyyət daşıyır. Azərbaycan nisbətən gənc dövlət olmasına baxmayaraq, BMT və bəşəriyyətin gələcəklə bağlı layihələrində yaxından iştirak edir və edəcək.

BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi Vladanka Andreeva diqqətə çatdırıb ki, bu platforma Azərbaycanda dayanıqlı inkişaf məqsədlərinin reallaşdırılmasının sürətləndirilməsinə təkan verəcək. İlk dialoq Azərbaycanda “yaşıl transformasiya”ya həsr olunub. Bu da hazırkı zamanda vacib müzakirə mövzusudur.

Vladanka Andreeva deyib: “Azərbaycan hökuməti Qarabağda azad olunmuş ərazilərdə “yaşıl zona”nın yaradılması istiqamətində işləri davam etdirir. Vətəndaş cəmiyyətinin, akademik çevrənin, hökumətin fəal fəaliyyəti dayanıqlı inkişaf məqsədlərinə çatmaq prosesində rol oynayacaq”.

Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev vurğulayıb ki, ərazilərimizin təxminən 30 ildən sonra işğaldan azad edilməsi iqlim dəyişmələrinin təsirinin yumşaldılması və azaldılması üçün yeni imkan yaradıb. Həmin ərazilərin bərpası zamanı “yaşıl kənd təsərrüfatı”, “ağıllı kənd” və “ağıllı şəhər” konsepsiyalarının tətbiqi, ekoloji təmiz texnologiyalardan, bərpa olunan enerji mənbələrindən istifadə bu ərazilərin dayanıqlı inkişafında mühüm rol oynayacaq. Burada “yaşıl enerji” zonalarının yaradılması və meşələrin bərpası iqlim dəyişmələrinin təsirinin yumşaldılması hədəflərinə çatmağa imkan verəcək.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, qlobal tendensiyaları və çağırışları qəbul etməklə, Azərbaycan 2021-2030-cu illəri əhatə edən pandemiya və münaqişədən sonrakı dövr üçün keyfiyyətcə yeni bir strateji mərhələyə qədəm qoyub. Bu çərçivədə Azərbaycan Hökuməti qarşıdakı onillikdə ölkənin sosial-iqtisadi və ətraf mühit inkişafı istiqamətində uzunmüddətli təkamül yollarını hədəfləyən beş milli prioriteti müəyyənləşdirib. Azərbaycanın yeni strateji inkişaf mərhələsində milli iqtisadiyyatımızın rəqabət qabiliyyətinin, innovasiya yönümlülüyünün və maliyyə dayanıqlılığının gücləndirilməsi, davamlı iqtisadi artım drayverlərinin fəallaşdırılması, ölkənin “yaşıl enerji” məkanına çevrilməsi və ətraf mühitin sağlamlaşdırılması, azad edilmiş ərazilərimizin sürətli reinteqrasiyası və sair kimi məqsədlər hədəflənir.

## Alman şirkətlərinin sənaye zonalarına investisiya yatırması imkanları müzakirə edilib

Almaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemann ilə İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) İdarə Heyətinin sədri Elşad Nuriyev arasında Sumqayıt Kimya Sənaye Parkında görüş keçirilib.

İZİA-dan bildirilib ki, agentliyin İdarə Heyətinin sədri Elşad Nuriyev ölkədə fəaliyyət göstərən sənaye zonaları və aqroparklar, burada sahibkarlar üçün yaradılmış investisiya mühiti, tətbiq edilən vergi və gömrük güzəştləri barədə məlumat verib, sənaye zonalarının təqdimatı olub. Eyni zamanda, səfirlik əməkdaşları İqtisadi Zonaların İnkişafı Agentliyinin Peşə Təhsil Mərkəzi barədə məlumatlandırılıb. Diqqətə çatdırılıb ki, mərkəzin tədris prosesində Almaniya təcrübəsindən istifadə edilir. Hazırda Mərkəzdə “İnformasiya kommunikasiya texnologiyaları üzrə texnik” ixtisasında dərslər Almaniya kurikulum təhsil sistemi əsasında tədris olunur.

Azərbaycanın logistik imkanlar baxımından çox əlverişli ərazidə yerləşdiyini vurğulayan Səfir Ralf Horlemann ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu diqqətə çatdırıb, əməkdaşlığın inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

Görüşdə alman şirkətlərinin sənaye zonalarına investisiya yatırması, sənaye zonalarında fəaliyyət göstərən istehsal müəssisələrində alman texnologiyasının tətbiqinin genişləndirilməsi, İZİA-nın nəzdində Peşə Təhsil Mərkəzinin tədris prosesində Almaniya təcrübəsindən istifadə edilməsi imkanlarına dair müzakirələr aparılıb.

## Faiz gəlirlərindən vergi tutulurmu?




Vergi Məcəlləsinə əsasən, 2016-cı il fevralın 1-dən etibarən 7 il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.

Dövlət Vergi Xidmətindən bildirilir ki, 2023-cü il fevralın 1-dən etibarən 5 il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont və faiz gəlirləri də gəlir vergisindən azad edilib.

## Çexiya ilə strateji tərəfdaşlıq əlaqələri müzakirə olunub

2022-ci il noyabrın 1-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf Çex Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Milan Sedlaçek ilə görüşüb.



SOCAR-dan bildirilib ki, səfir Milan Sedlaçek Çex televiziyasının "Xaricdən mənzərələr" proqramının bir hissəsi kimi hazırlanacaq sənədli filmin “Neft Daşları”nda çəkilişləri üçün göstərilən dəstəyə görə təşəkkürünü ifadə edib.

Görüşdə Azərbaycanla Çexiya arasında strateji tərəfdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi vurğulanıb, iki ölkə arasında iqtisadi sahədə, o cümlədən neft-qaz sektorunda qarşılıqlı faydalı əməkdaşlığın əhəmiyyəti qeyd olunub.

Görüşdə, həmçinin əməkdaşlıq perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Dünya Bankı Azərbaycanda “yaşıl inkişaf”ın qiymətləndirilməsini aparır

Bu barədə Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Sara Maykl deyib.



“Azərbaycan son 30 ildə çox böyük iqtisadi uğurlar qazanıb, o cümlədən Dünya Bankının donoruna çevrilib. Azərbaycan “yaşıl transformasiya” üzrə qlobal lider olmaq potensialına malikdir”, - deyə S.Maykl qeyd edib.

3-16 noyabr 2022-ci il

# QƏTİYYƏTLİ VƏ MÜSTƏQİL SİYASƏTİN MÜKƏMMƏL NÜMUNƏSİ

**Sərhəd monitorinq missiyası yalnız Ermənistan ərazisində fəaliyyət göstərəcək**

Praqada əldə olunan razılaşmalardan biri sərhədlərin delimitasiyası üzrə komissiyanın iclasının tezliklə keçirilməsidir. Bu razılaşma da Azərbaycanın maraqlarına tam cavab verir. Məlumdur ki, Vətən müharibəsi başa çatandan sonra rəsmi Bakı sərhədlərin delimitasiyası məsələsi üzərində xüsusi dayanır. Azərbaycanın münasibətlərin normallaşması üçün Ermənistana təklif etdiyi beş maddəlik prinsip arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası məsələsi də var. İndi isə İrəvan sərhədlərin delimitasiyası üzrə komissiyanın iclasının tezliklə keçirilməsinə razılıq verib. Məsələnin Avropa İttifaqı kimi nüfuzlu qurumun himayəsi altında razılaşdırılmasını, yaxın zamanlarda bu sahədə irəliləyişin əldə olunacağını gözləmək olar.

Aİ və Fransa Azərbaycan ərazilərini də əhatə edəcək birgə sərhəd monitorinq missiyası yaradaraq, bundan regiona daxil olmaq üçün istifadə etmək istəyirdilər. Amma öz suverenliyinə dəyər verən Azərbaycan buna etiraz edib. Azərbaycanın qəti mövqeyindən sonra belə razılaşdırılıb ki, missiya yalnız Ermənistan ərazisində həyata keçiriləcək.

Azərbaycan yalnız öz maraqlarına uyğun şəkildə missiya ilə əməkdaşlıq edəcək, sərhəd missiyası etimad quruculuğu və sərhədlərin delimitasiyasına töhfə və dəstək verəcək. Ermənistan isə bu sərhəd missiyasına razılıq verməklə suveren dövlət olmadığını bir daha göstərdi. İrəvan bununla həm də Rusiyaya qarşı yeni və kəskin addım atmış oldu. Xatırladaq ki, Nikol Paşinyan sərhədə beynəlxalq missiyanın dəvət olunması təklifi ilə hələ bir müddət əvvəl çıxış etmişdi. Onun bu təklifi isə Rusiya tərəfindən kəskin etirazla qarşılanmışdı.

Bəyanatda Zəngəzur dəhlizi ilə bağlı məsələnin olmaması onunla bağlıdır ki, bu məsələ 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanan üçtərəfli bəyanatla tənzimlənir. Həmin sənəd qüvvədədir, Zəngəzur dəhlizinin açılması hər zaman aktualdır, gündəmdədir və onun reallaşdırılması istiqamətində iş davam etdirilir. Ermənistan rəhbərliyi Zəngəzur dəhlizinin açılması ilə bağlı 2020-ci il noyabrın 10-da üzərinə götürdüyü öhdəliyin icrasından, nə qədər çalışsa da, yayına bilməyəcək. Azərbaycanın Ermənistan rəhbərliyini bu məsələdə üzərinə düşən öhdəliyi yerinə yetirməyə məcbur edəcək. Prezident İlham Əliyev Praqada Azərbaycan televiziyalarına müsahibəsində belə bir fikir də səsləndirdi: "Hamı bilir ki, dəmir yolu və avtomobil yolu haradan keçməlidir. Bizə Naxçıvana könüllü olaraq keçid verilməməsi anlaşılan deyil. Öz öhdəliyini pozmaq, əlbəttə, son dərəcə biabırçı faktdır. Lakin biz hələ səbir edirik, təmkin göstəririk. Əminəm, biz buna da nail olacağıq, yaxşı olardı ki, gec deyil, tez olsun."

Bu, Prezident İlham Əliyevin xəbərdarlığı idi. Azərbaycan bütün imkanlardan istifadə etməklə Ermənistanı öz öhdəliklərinin icrasına məcbur edir və Prezidentin xəbərdarlığı göstərir ki, bu proses məntiqi sonluğa kimi davam etdiriləcək.

Beləliklə, Azərbaycanın maraqları Prezident İlham Əliyev tərəfindən Praqa danışıqlarında da layiqincə qorundu. Əvvəlki görüşlərdə tərəflərin mövqelərinin yaxınlaşdırılması üzrə bir sıra razılaşmalar əldə olunmuşdu. Praqa görüşündə isə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması üzrə yaxın həftələrdə əməli addımların atılması üçün xüsusi əhəmiyyətə malik olan bəyanat imzalandı. Prezident İlham Əliyev mahir diplomat kimi beş saatdan çox çəkən danışıqlar prosesində bütün təzyiqləri dəf edərək Azərbaycanın prinsipial mövqeyini qətiyyətli şəkildə müdafiə etdi və əldə edilmiş razılaşmalar tam şəkildə Azərbaycanın milli dövlətçilik maraqlarına xidmət göstərir. Göründüyü kimi, Azərbaycan bütün imkanlardan istifadə etməklə Ermənistanı öz öhdəliklərinin icrasına məcbur edir və bu proses məntiqi sonluğa kimi davam etdiriləcək.

Bir məsələni də qeyd etməliyik ki, Ermənistan nəyin bahasına olursa-olsun, ATƏT-in uğursuz Minsk qrupu formatını, daha dəqiq desək, həmsədrlik institutunu diriltməyə çalışır və müxtəlif bəhanələrlə prosesin uzadılmasına, əldə olunmuş razılaşmaların yerinə yetirilməməsinə çalışırdı. Amma buna nail ola bilmirdi və bilmədi də. Ermənistanın və təhrikçilərinin bu istəyi Praqada da həyata keçmədi və Emanuel Makron Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən görüşə ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi deyil, sadəcə, müti, qorxaq Ermənistanın vəkilliyini edən, konkret tərəfin yanında dayanan, yaxud özlərinin də böyük məmnuniyyətlə dilə gətirdikləri kimi - "böyük bacı" missiyasını yerinə yetirən Fransanın prezidenti kimi qatılmaq məcburiyyətində qaldı.



**Prezident İlham Əliyevin yüksək beynəlxalq nüfuzunun növbəti təsdiqi**

Son iki ayda istər Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, istərsə də Azərbaycnın beynəlxalq münasibətlərinin inkişafı nöqteyi-nəzərindən özünü bir daha təsdiq edən həqiqətlərdən biri Prezident İlham Əliyevin yüksək nüfuza və reytinqə malik dövlət başçısı olmasıdır. Oktyabrın 6-da Praqada Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın Baş Naziri Nikol Paşinyan arasında keçirilən görüş «Avropa siyasi birliyi» Zirvə Toplantısı çərçivəsində baş tutmuşdu. Həm bu görüş, həm də Zirvə Toplantısı İlham Əliyevin yüksək nüfuzunu, respublikamızın qlobal məsələlərdə güclü rolunu bir daha təsdiqlədi.

Azərbaycanın region və qlobal miqyaslı məsələlərdə söz sahibi olaraq çıxış etməsi respublikamızın xarici siyasətinin mühüm tərəflərindən biri kimi diqqət çəkir. Bakının qlobal proseslərdə iştirak göstəricisinin ağırlığı, beynəlxalq müstəvidə özünü göstərən problemlərin yoluna qoyulmasına verdiyi töhfələr, irəli sürdüyü təşəbbüslər qlobal səviyyədə ehtiramla qarşılanır. Təsadüfi deyil ki, bir sıra dövlətlər, o cümlədən Avropa İttifaqının üzvləri Cənubi Qafqazın lideri olan Azərbaycanla strateji tərəfdaş olduqlarını elan ediblər. Dünyanın böyük siyasi və iqtisadi dairələri Azərbaycanın regiondakı liderliyini və qlobal siyasətdə rolunu daim yüksək qiymətləndirirlər. Bütün bunları təmin edən Prezident İlham Əliyev isə dünyanın ehtiram göstərdiyi nüfuzlu siyasi liderdir. Bu mənada Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Çex Respublikasının Baş Naziri Petr Fialanın dəvəti ilə "Avropa siyasi birliyi" Zirvə Toplantısında iştirak etməsi Azərbaycan Prezidentinə yüksək beynəlxalq ehtiramın növbəti təcəssümü oldu. Eyni zamanda, bu dəvət Azərbaycanın beynəlxalq birlikdəki yerinin nə qədər möhkəm, qlobal məsələlərdə oynadığı önəmli rolun nə qədər mühüm olduğunu göstərdi. Prezident İlham Əliyev Azərbaycan televiziya kanallarına müsahibəsində bu barədə deyib: "O ki qaldı Azərbaycanın bu tədbirə Avropa tərəfindən dəvət edilməsinə, bunu, əlbəttə, biz yüksək qiymətləndiririk. Bu, yeni platformadır, müzakirələr təzə başlayıb. Hələ ki, bu təşəbbüsün gələcəyi ilə bağlı dəqiq bir şey demək mümkün deyil. Amma hər halda, Azərbaycanı həm Avropa İttifaqı tərəfindən, həm də tədbirin ev sahibi - Çexiya tərəfindən bu Avropa ailəsinə dəvət etmələri deməyə əsas verir ki, bizim əlaqələrimizin çox gözəl perspektivləri vardır."

Bu Zirvə Toplantısında Azərbaycan ən yüksək səviyyədə təmsil olundu, sayılıb-seçilən ölkələr arasında öz yerini tutdu. Biz bunu Prezident İlham Əliyevin çıxışı, görüşləri, jurnalistlərlə ünsiyyəti zamanı, onunla qeyri-formal söhbət aparan dövlət başçılarından, həm də formal təşkil olunmuş görüşlərdən və müzakirələrdən bir daha gördük.

Təbii ki, bütün bunları şərtlərindən əsas amil Prezident İlham Əliyevin yürütdüyü siyasətdir. Gərgin qlobal beynəlxalq münasibətlər şəraitində istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev beynəlxalq miqyasda da siyasi lider olaraq ehtiramla qarşılanır. Dövlətimizin başçısının hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır. "Avropa siyasi birliyi" Zirvə Toplantısı da bu baxımdan Azərbaycanın qlobal məsələlərdəki güclü rolunu, Prezident İlham Əliyevin yüksək nüfuzunu bir daha təsdiq edən tədbir oldu.

Zirvə Toplantısında diqqət çəkən önəmli məqamlardan biri də iki qardaş ölkənin - Azərbaycan və Türkiyə prezidentlərinin birliyini, qarşılıqlı etimad və etibarını ehtiva edən səmimi davranış tərzi idi. Sammitin keçirildiyi məkanda iki türk liderinin qol-qola gəzərək dünyaya göstərdiyi jest ayrıca bir fərəh doğuran hadisə oldu. Heç şübhəsiz ki, bu tərz bədxahlarımızın və siyasi qısqancların diqqətindən də yayınmırdı. Zirvə Toplantısı bir daha göstərdi ki, ötən illər ərzində ölkələrimizin üzləşdiyi ayrı-seçkiliyə, ikili standartlara və uydurulmuş fobiyalara rəğmən, bu tədbirdə həm də türk dünyasını təmsil edən Azərbaycan və Türkiyə dövlət başçıları yalnız yerləşdiyimiz coğrafiyada deyil, bütövlükdə dünyada sülhün və əmin-amanlığın, qarşılıqlı şəkildə faydalı və bərabərhüquqlu əməkdaşlığın, dinc birgəyaşayışın və mehriban qonşuluğun tərəfdarıdır.

"Avropa siyasi birliyi" qitənin ölkələri arasında siyasi əlaqələndirmə platformasıdır. İlk dəfə keçirilən bu Zirvə toplantısı Avropa ölkələrinin liderlərini bərabərhüquqlu və birlik ruhunda bir araya gətirdi. Toplantı ərzində liderlər müxtəlif fikir mübadilələri zamanı sülh və təhlükəsizlik, iqtisadi vəziyyət, enerji və iqlim, miqrasiya və hərəkətlilik məsələlərini müzakirə etdilər.

Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir. Bu cür siyasi əlaqələndirmə platformaları imkan verir ki, iştirakçı ölkələrin aktual məsələlərə bağlı mövqeyi tərəfdaşların diqqətinə təhrif olunmadan çatdırılsın. Dövlətimizin başçısı Zirvə Toplantısı çərçivəsində "Avropa qitəsində sülh və təhlükəsizlik" mövzusunda keçirilən dəyirmi masadakı çıxışında məhz bu səbəbdən vurğuladı ki, dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn, xüsusilə ərazi bütövlüyünün toxunulmazlığı prinsipinin gözlənilməsi və bu prinsipin üstün hüquqi qüvvəsinin hamılıqla qəbul olunması əsas şərtdir. Prezident onun da altını cızdı ki, bu prinsipə münasibətdə selektiv yanaşma yolverilməzdir, çünki dünya nizamına artan təhdidlər həm də bundan qaynaqlanır.

Praqa görüşündən bir neçə gün əvvəl isə Bolqarıstanın paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilmişdi. Serbiya Prezidenti Aleksandar Vuçiçin Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində dediyi sözlər bu baxımdan Prezident İlham Əliyevin Avropada qəbul edilən lider olduğunu təsdiq edir. "Bolqarıstanlı və yunanıstanlı dostlarımızı bu interkonnektorun uğurla tamamlanması münasibətilə təbrik edirəm. Layihə Serbiya üçün də vacib əhəmiyyət kəsb edir. Deməliyəm ki, dostumuz İlham Əliyevin iştirakı olmasaydı, bizim hər birimiz üçün qaz, eləcə də elektrik enerjisi təchizatının şaxələndirilməsinə ümid etmək asan olmazdı. Əziz dostum, görürəm ki, indi Siz Avropada çox məşhurlaşmısınız. Mən Sizinlə əlaqə saxlamaq istəyirəm. Mən onunla dəfələrlə danışmışam. O, Avropada çox məşhurlaşıb. Bu arada, bilmirəm o, nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim", - deyə Aleksandar Vuçiç bildirib.

**Akademik Ziyad Səmədzadə**




**BİZ GƏLƏCƏYƏ NİKBİNLİKLƏ BAXIRIQ.**

Biz istədiyimizə həmişə nail oluruq. İstədiyimiz isə bölgədə sülhün, əmin-amanlığın olması, müharibənin olmaması, Azərbaycanın uğurla inkişaf etməsi və xalqımızın firavanlığıdır.

**İlham ƏLİYEV**



# ZƏFƏR GÜNÜ AZƏRBAYCAN



*8 noyabr 2020-ci il doğma Qarabağımızın Azərbaycana qovuşduğu gündür. Zəfər Günü münasibətilə Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri də öz ürək sözlərini oxucularla bölüşüb. Elmi rəhbərləri Maliyyə və mühasibat fakültəsinin dekanı, dos. Hafiz Hacıyev və "Maliyyə və audit" kafedrasının dos. Flora Kaşiyevadır.*



## Vətənin keşiyində

44 gün – Azərbaycan, o cümlədən dünya tarixinə qızıl rəqəmlərlə yazılmış şanlı zəfərimizin ömrüdür. Vətən müharibəsi, "dəmir yumruq" əməliyyatı, 2-ci Qarabağ savaşı, böyük qələbə kimi də adlandırılan bu 44 günlük şanlı zəfər tarixindən artıq iki il ötür… Çox tez keçdi iki il, lakin 44 gün bitmək bilmirdi, sanki illər, qərinələr, əsrlər çarpışırdı 44 günün içində. Dünya xəritəsində kiçik bir yeri əhatə edən Azərbaycan dövləti 44 gün ərzində dünyaya səs salaraq, bütün gücünü göstərdi. O güc ki, heç bir beynəlxalq təşkilat tərəfindən, heç bir bəyanat və danışıqlar nəticəsində həll yolunu tapa bilməyən gerçəklər bu 44 günün tamamında öz həqiqətlərini dünya birliyinə hayqırdı. Məgər necə güclü, necə qüdrətli dövlətimiz var imiş?! Necə əzmkar, necə vətənpərvər, mərd ürəkli, igid xalqımız var imiş?! Sözlərdə deyil, əməllərdə gördük və bir daha əmin olduq. Torpaqlarımızdanayrı qaldığımız 30 ilin kini, nifrəti, nisgili, ağrısı-acısı vulkan olub 44 gündə püskürdü və bu vulkandan çıxan od-alov düşməni yandırdı.

Qüdrətli Azərbaycan dövləti öz əzəli-əbədi torpaqlarını işğaldan azad etmək üçün əks-hücum tədbirlərinə başladı. Bəli, əks-hücum əməliyyatı, çünki ilk qığılcım bizdən yaranmadı. Məlum olduğu kimi, Azərbaycan Konstitusiyasının 9-cu maddəsinə əsasən "Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rəddedir". Biz isə öz əzəli-əbədi, ulu torpaqlarımız, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağımız uğrunda müharibə etdik. Lakin daha əvvəl, 30 ilə yaxın müddət ərzində sülh danışıqlarına davam edərək, Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunacağına ümid bəsləyirdik. Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyev, onun ardınca isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə danışıqlar aparmış, beynəlxalq konfranslarda çıxış etmiş, Dağlıq Qarabağın statusu haqqında dünya birliyinə sülh yolu ilə çağırışlar etmişdir. Lakin bütün danışıqlar əhəmiyyətsiz olmuş, BMT tərəfindən qəbul olunmuş 4 qətnamə elə kağız üzərindəcə qalmış, heç bir nəticə hasil olmamışdır.

Aprel döyüşlərindən 4 il sonra - 2020-ci ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində şiddətli döyüşlər baş verdi. Həmin döyüşlər zamanı general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev də daxil olmaqla böyük şücaət göstərən 12 hərbçimiz şəhidlik zirvəsinə yüksəldi. Bu, bir daha sübut etdi ki, qüdrətli ordumuzun yüksək rütbəli zabitləri əsgər arxasında gizlənmir, döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirirlər. Qələbə ilə yekunlaşan 5 günlük Tovuz döyüşləri Azərbaycanın uzun illər işğal altında olan torpaqlarının azad olunmasına yol açdı. Bu döyüşlər şanlı qələbə üçün bir qığılcım rolunu oynadı.

30 il boyunca heç bir beynəlxaq təşkilatın addım atmadığını, dünya birliyinin işğalçılara göz yumduğunu görən dövlətimiz artıq öz məsələsini özü həll edərək müdafiəyə qalxdı. Qanında milli ruh olan, döyüş əzmli xalqımızın mərd, igid oğulları – on minlərlə vətəndaşımız könüllü şəkildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdi. Onlar döyüşə hazır olduqlarını və 30 illik həsrətə son qoymaq üçün axır nəfəslərinə qədər döyüşəcəklərini dedilər. Bu hadisələr göstərdi ki, xalqımızın heç düşünmədən vətən uğrunda döyüşməyə hazır olan igidləri çoxdur.



**Əli Məmmədli, Maliyyə və mühasibat fakültəsinin 426 saylı qrup tələbəsi**

## Şəhidlər ölməz, Vətən bölünməz!

**Azərbaycan, mayası nur,**
**qayəsi nur ki,**
**Hər daşından alov dilli**
**ox ola bilər.**
**Azərbaycan deyiləndə**
**ayağa dur ki**
**Füzulinin ürəyinə**
**toxuna bilər.**

Yazımı Məmməd Arazın bu misraları ilə başlamağım heç də təsadüfi deyil. Odlar diyarım, şanlı Vətənim - Azərbaycanım tarixlərin kəşməkeşli, əzablı yollarında daim mübariz, mətin addımlarla irəliləmiş, tarixin bütün çətinliklərinə sinə gərmişdir. Bu mübarizələrdən, çətinliklərdən daim üzüağ çıxmış Azərbaycanımızın mərd, igid, qəhrəman oğulları tarix yazmış, tarix olmuşlar. Bu diyarı, bu milləti, dövləti əsarət altında saxlamaq, əzmək istəyən mənfur düşmənlər qismən də olsa, arzularına çatmışlar. Lakin daim azadlıq eşqi ilə yanıb-tutuşan, millətini, xalqını sevən, igid,mərd Azərbaycan oğulları bu diyarı azadlığa qovuşdurmuş, şanlı Azərbaycan bayrağını yüksəklərdə görmək üçün canlarını Vətənə fəda etmişlər.

Çox uzaq tarixə getmək istəməzdim. 1918-ci ildən bu yana başımıza gətirilən faciələrə necə mərdliklə sinə gərmiş Azərbaycan xalqı! Soyqırımılardan keçmiş bir millət Qafqazda ilk demokratik cümhuriyyətini qurmuş və dünyaya bunu bəyan etmişdir: **"Bir kərə yüksələn bayraq bir daha enməz!", -** hayqıraraq qoca Şərqdə dövlət quran ulularımız bu şanlı bayrağı biz nəslillərə əmanət etdi. Lakin mənfur düşmənin məkrli siyasəti bu dövləti çökdürsə də, bu millətin qəlbində olan Vətən, bayraq sevgisini söndürməyi bacarmadı.

Tankların qarşısına əliyalın çıxan, düşmənə meydan oxuyan Azərbaycan oğulları yeni tarix yazdılar və tarix oldular. Yağı düşmənsə bildiyini etmək üçün əlindən gələn bütün imkanlardan istifadə edir, öz mənfur niyyətini həyata keçirməyə çalışırdı. Nəhayət, öz havadarlarının köməkliyi sayəsində istəklərinə çatdılar, Azərbaycanımızın dilbər,gözəl guşəsi olan Qarabağımızda ərazi iddialarına başladılar. Yenə də Azərbaycanın mərd oğulları silaha sarılıb haqq mübarizəsinə, haqq savaşına qalxdılar. Bu müharibədə çox canlar yandı, çox şəhidlər verdik, Xocalı kimi,Daşaltı kimi faciələrin şahidi oldu q.

Düşmən qismən Azərbaycan ordusunun gücünü görsə də, yenə də havadarlarına güvənib növbəti təxribatlara əl atdı.

Məhz belə bir təxribat zamanı Azərbaycan ordusu özünün mərd, vətənpərvər oğlu Polad Həşimovu və onun silahdaşlarını itirdi. Qarabağa gedən yol Tovuzdan başladı. Ayağa qalxan xalq artıq silaha sarılmaq istəyir, utancı üzərindən götürməyə çalışırdı.

Nəhayət, o tarixi an yetişdi. Ali Baş Komandanın döyüş əmri ilə 2020-ci ilin 27 sentyabrında toplar atıldı. Əzəmətli Azərbaycan ordusu öz tarixi torpaqları uğrunda haqq savaşına başladı.

Azərbaycanın mərd oğulları sübut etdi ki, bu millət heç də qorxaq deyil. Şanlı ordumuz Azərbaycan xalqına çox böyük sevinc yaşatdı. Bu haqq savaşı da digər savaşlar kimi itkisiz olmadı. 3000-ə yaxın Vətən övladı elə bu Vətən uğrunda ən uca zirvəyə - şəhidlik zirvəsinə ucaldı.

Bəli, bu oğullar sayəsində yeni tarix yazıldı. Bu oğulların sayəsində Azərbaycan xalqı, ordusu qalib ordu seçildi. Bu oğullar tarix yazdı,tarix oldu.

**Bəli, bu Vətən bizimdir!**
**Bu bayraq bizimdir!**

Bu bayrağı, bu Vətəni bizə bəxş edənsə, mənim Şəhidim, mənim Qazim, mənim Əsgərimdir!



**Aydan İsmayılzadə, Maliyyə və mühasibat fakültəsinin 424 saylı qrup tələbəsi**

## Vətən müharibəsi

44 günlük müharibənin ilk günlərindən ordumuzun əks-hücum əməliyyatları nəticəsində bir neçə rayonumuz işğaldan azad edilmişdir.

Bunlardan biridə 4 oktyabrda azad edilən Cəbrayıl idi. Cəbrayıl azad edildikdən sonra Ermənistan ordusu cəbhənin cənub istiqamətində sonrakı döyüşlərin də gedişatına təsir edən uğursuz həmləyə, Azərbaycan ordusunun 2016-cı ilin aprelində azad etdiyi "Lələtəpə" yüksəkliyini geri almağa cəhd etdi. Lakin Azərbaycan ordusunun kəşfiyyat bölmələri erməni tərəfinin hücumu barədə əvvəlcədən məlumat topladığı üçün Azərbaycan tərəfi döyüş üçün lazımi tədbirləri aldı. Əks-hücum cəhdi nəticəsində Ermənistan ordusunun bir tank polku darmadağın edildi, 800-dən çox hərbçisi məhv olduvə həmin uğursuz əks-hücum cəhdindən sonra Ermənistan qüvvələri cəbhənin cənub istiqamətində salamat qalan texnikanı da atıb qaçmağa üz tutdular.

Azərbaycan Silahlı Qüvvələri oktyabrın 22-də Qarabağın İranla cənub sərhədini tamamilə azad etdi və 23 oktyabrda Laçın Dəhlizinə doğru irəliləməyə başladı. Laçın Dəhlizi Qarabağdakı qondarma qurumla Ermənistanı birləşdirən yeganə böyük magistral yol idi. Ən yaxın coğrafi yeniləmələr göstərirdi ki, həmin gün Azərbaycan qüvvələri Laçın magistral yolunu kəsmək üçün yalnız 10 km məsafədə idi. Magistral yola nəzarət Ermənistandan yanacaq, döyüş sursatı və hərbi möhkəmlətmə ehtiyatlarının qarşısını alacaqdı. Azərbaycan ənənəvi olaraq gün ərzində hərbi karvanların qarşısını almaq üçün artilleriya, minaatan və hətta birbaşa atəş və ya idarə olunan raketlərlə Ermənistan ordusuna zərbələr endirirdi.

Həmin dövrdə isə düşmən döyüş meydanında savaşmaq yerinə,sivil xalqın yaşadığı əraziləriballistik raket və ağır artilleriya qurğuları ilə atəşə tutur,mülki şəxsləri qətlə yetirir və ciddi zərər verirdi. Bu hücumlardan ən dəhşətlisi isə oktyabr ayında, gecə saatlarında Gəncədə baş verdi.Düşmənin silahlı qüvvələri yenidən öz çirkin əməllərinə əl ataraq, Azərbaycan xalqına qarşı növbəti dəhşətli və insanlıqdan uzaq cinayət törətdi. Ermənistan hərbçiləri çox təhlükəli silah sayılan - "TOÇKA-U" raket sistemindən və Skat ballistik raketlərindən istifadə edərək, Gəncədə insanların sıx yaşadığı əraziləri gecə saatlarında raket atəşinə tutdular.Bu hücumlar nəticəsində 27 nəfər həyatını itirdi,125 nəfər isə yaralandı. Bundan əlavə, cəbhə bölgəsinə olduqca yaxın mövqedə yerləşən Tərtər rayonundakı şəhər, qəsəbə və kəndlər də artilleriya, raket və kasset bombalı silahlarla bombardman edildi. Bu hücümlar isə öz növbəsində erməni silahlı qüvvələrinin döyüş zamanı yerli xalqa qarşı göstərdiyi qeyri-humanist addımların əsasını təşkil edirdi.

Torpaqlarımızı işğaldan azad edən rəşadətli ordumuzun uğurlu hərbi əməliyyatları nəticəsində Ermənistan silahlı qüvvələri darmadağın edildi. Çoxsaylı itki verən düşmən geri çəkilməyə məcbur oldu.

Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir! Vətən millətin evi, millət də vətənin ailəsidir. Vətən bizi qoruyan anadır.

Vətəni sevmək təkcə torpağını sevmək deyil, Vətəninin hər bir sərvətinin qədrini bilməkdir.



**Aynur Ələkbərova, Maliyyə və mühasibat fakültəsinin 426 saylı qrup tələbəsi**

## 44 günlük Vətən müharibəsi

Azərbaycan ordusunun əzmi,-döyüş ruhunun əsası Ali Baş Komandan İlham Əliyevin hakimiyyətdə olduğu illərdə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasından irəli gəlirdi. Azərbaycan döyüşlərdə hərb tarixinə yenilik kimi düşən strategiyanın tətbiqi ilə ən müasir silahlardan istifadəyə xüsusi önəm verdi. Nəticədə həm sürətlə irəlilədi, işğal altındakı ərazilərimizi yağılardan təmizlədi, həm də düşmənin bütün hərbi texnikasını darmadağın etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Bununla da beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qısa müddətdə gerçəkləşdirdi.

Azərbaycanın igid, məğrur ordusu əks-həmlə ilə düşmənə öz gücünü göstərdi. Müasir texnoloji silahlar silahlı qüvvələrimizin güc alətlərindən yalnız biri idi. Müharibənin taleyini müəyyənləşdirən başda Ali Baş Komandanımız olmaqla, döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləri idi. Məhz onların səyi nəticəsində iflic vəziyyətinə düşən Ermənistan ordusu arsenalında olan köhnə və istismar müddəti bitmiş silah sistemlərini də döyüşə cəlb etdi və nəticəsi rüsvayçı şəkildə uduzmaq oldu. Azərbaycan ordusu gücü, vətənpərvərlik hissi ilə ermənini susdurdu və Azərbaycanın şanlı bayrağını Qarabağda dalğalandırdı.

Azərbaycan Böyük Qələbənin addım səslərini noyabrın 8-də Qarabağın ürəyi sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bəli, bu qədim yurd yerimizin xilası ilə qələbəmizə bütünlüklə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu qalmadı. Döyüşlərdə bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü.

Azərbaycan cəbhədə əldə etdiyi bu qələbələrin əsasını son illər ərzində qoyub. Ordumuzun güc-qüdrətinə mühüm önəm verilib, ən müasir döyüş texnikasının alınması gerçəkləşdirilib. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılıb. Azərbaycan Prezidenti İ.Əliyev çıxışlarının birində bu barədə danışarkən deyib: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır."

Azərbaycan öz əzəli torpaqlarını düşmən işğalından azad etməyi bacardı.şəhidlərinin qisası alındı. Azərbaycan bu müharibədə qalibiyyət əldə etdi. "Qarabağ Azərbaycandır!"



**Aytəkin Babayeva, Maliyyə və mühasibat fakültəsinin 414 saylı qrup tələbəsi**

# TARİXİNİN ŞANLI SƏHİFƏSİDİR

## Şanlı zəfər yolu

Biz həyatımız boyu bir çox seçimlər edir, qərarlar veririk. Bəlkə də seçə bilmədiyimiz yeganə şeylər valideynlərimiz və vətənimiz olur. Lakin bizəonlar qədər əziz və doğma heçnə yoxdur. Burada deyiblər axı, - **"Ana Vətən","Ata ocağı".** Anamız qədər sevib, ona tən tutduğumuz, qayğıkeş atamız tək bizə qucaq açan Azərbaycanımız. Hər daşında, kəsəyində səfa tapırıq bu gözəl yurdun. Zəngin torpaqları, saf suları, əsrarəngiz sərvətləri ilə odlar yurdu Qafqazın ən gözəl guşəsidir. Elə bu səbəbdəndir ki, torpaqlarımıza göz dikən mənfurlar illərdir xülyalarda yaşayırlar. Bakı neftini, Qarabağ incilərini, Azərbaycanın mövqeyini arzulayanları hər əsrdə görmək mümkündür.

***"Tarix elə bir elmdir ki, gələcəkdə baş verə biləcək hadisələri keçmişinlibasında insanların ibrət nəzərinə çatdırır."*** A.Bakıxanovun bu sətirlərində böyük həqiqət var. Gəlin, tariximizə nəzər salaq. 50 il, 100il, 1000 il? Xeyr. Nəqədər keçmişə dönsək də, yurdumuzun başından qara buludlar əskilməmiş, ölkəmizi gözü götürməyənlər çox olmuşdur. Və qaçınılmazdır müharibələr, itkilər, şəhidlər...

**İl 1918.** AXC qurulur, illərdir sürən əsarətdən qurtuluruq, azadıq deyərkənerməni xisləti özünü göstərir. Bir çox bölgələrimizdə qırğınlar başlayır. Çox çəkmir ki, xalqımızın min bir əziyyətlə qurduğu müstəqillik süqut edir. Ən böyük röya olan Qarabağda 1923-cü ildə qondarma vilayət yaranır…

**İl 1988.** Ermənilər bəxşiş kimi aldıqları torpaqları tarixi erməni yurdu kimi qələmə verir, xalqımızı kütləvi deportasiyalara məruz qoyurdular. Çox keçmirki, işğallar, hücumlar başlayır. 90-cı illərdə 20 Yanvar hadisələrindən tutmuş Xocalı soyqırımınadək minlərlə can fəda olur. Tarixdə irəlilədikcə bu qəhrəman xalqın şərəfli yolunu görürük.

Şanlı tariximizdən və bu mövzudan danışarkən 2010-cu ildə tək başına 140 ermənini məhv edən və qəhrəmancasına şəhid olan Mübariz İbrahimovu qeyd etməliyəm. Sankio sönmüşümidləri alovlandırdı. Bizlərə bir cığıraçdı. Azərbaycan igidinin bir qolunda 140 erməni leşi olduğunu göstərdi. Və bir-birinin ardınca ruhlandı hər bir Azərbaycan vətəndaşı. Əzmlə, iradəylə irəli addımladıq. Aprel döyüşlərindəki igidliyi ilə Azərbaycan əsgəri strateji üstünlüyə malik ərazilərıələ keçirdi. Hər addım, hər həmlə Vətən üçün idi.

Cəmi 44 günə azad etdik Qarabağımızı. 8 noyabrda ən gözəl guşəmiz Şuşanı qaytardıq. Bayram etdik. O gecə insanlar yatmadı, hər kəsküçələrə axışdı. Bakı küçələrinə. Xatırladım sizə, o küçəyəki 1990-cı ilin 20yanvarında tankın qabağını kəsmişdilər. Qərənfillər qan ağlamışdı. 8 noyabr günü xarı bülbül qərənfilin göz yaşlarını əbədiyyən sildi. Dönürük yurdumuza, bütövük, bayram edirik. Müharibənin 2-ci üzü susdurur məni. 3000 mələk durur gözümün önündə. 3000 ailə, 3000 sevgi, 3000 həyat...

Bir an belə düşünmədən canını fəda edən oğullarımızı, oğlunun nəşi qarşısında qol açıb oynayan anamızı, qurban kəsən atamızı necə unudaq?!

**Cəbrayıl Dövlətzadə.** Bir əsgər, düşünün, 19 yaşında, əlləriylə düşmən generalını boğur. Tək başına erməni dəstələrini məhvedir. Davamıdır Mübarizin, intiqamıdır Poladın.

**Muxtar Qasımov.** Döyüşə dünəndən hazır olan qəhrəman. Bircə baxışı düşməni lərzəyə gətirməyə kifayət idi.

Dastana dönən Xudayar Yusifzadə. Güllənin altındaykən belə bizə Vətən yaxşıdır dedi.

100-lərlə canı xilas edib, özü şəhid olan Arəstə Baxışova. İlk şəhid qadın adını qəhrəmanlıqlaqazandı.

Hal-hazırda yazdıqlarımı bitirərkən cəbhədə bizi qoruyan əsgərlərimizi düşünürəm. Nə zaman bitəcək bu düşmən vəhşiliyi?! Ümid edirəm daha yeni bir şəhiddən yazmaram. Bu günə qədər canından keçənlər haqlarını halaledər...



**Cəmilə Bədəlova,**
**Maliyyə və mühasibat fakültəsinin 426 saylı qrup tələbəsi**

## Zəfər tarixi

27 sentyabrda başlayan müharibənin ilk günündən Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən həyata keçirilən əks-hücum əməliyyatları nəticəsində bir neçə rayonumuz, eləcə də strateji əhəmiyyətli digər ərazilərimiz işğaldan azad edilmişdir. Bu məqsədlə 29 sentyabr 2020-ci il tarixində "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərman imzalanmışdır.Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər vermişdir. Qarabağ uğrunda döyüşlərdə Azərbaycan xeyli itki versə də, böyük irəliləyişlərə imza atmışdır. "Dəmir Yumruq" altında birləşən Azərbaycan ordusu 27 sentyabrda Füzuli və Cəbrayıl rayonlarının bir sıra kəndlərini işğaldan azad etmişdir. Murovdağ silsiləsindəki hündürlüklərdə yerləşən postlar darmadağın edilmiş və bir sıra hakim yüksəkliklər nəzarətə götürülmüşdür. Azərbaycanın güclü ordusu öz məğrur gücünü ermənilərə göstərərək, Qarabağı geri aldı. Bir xalq olaraq igid əsgərlərimiz, qazilərimiz və şəhidlərimizin qarşısında baş əyirik.

8 noyabr 2020-ci ildə Şuşa şəhəri işğaldan azad edildi. İllərdir öz dədə-baba yurdundan uzaq qalan həmin oğullar torpaqlarını düşməndən azad etdilər. Xüsusilə Şuşada baş verən döyüşlər bir daha Azərbaycan oğullarının necə mərd və güclü olduğunu sübut etdi. Azərbaycan Ordusu tarixdə adını qızıl hərflərlə yazdı.10 noyabr 2020-ci il tarixində 3 ölkənin dövlət başçıları tərəfindən bəyanat imzalandı. 44 gün davam edən müharibə hər bir azərbaycanlının qəlbində sevinc hissi yaratdı. Mən də bu hadisələrdən təsirlənərək, "Bir tarix yaz" şeirini qələmə aldım:

**Bir tarix yaz**
**Bir tarix yaz**
**Həm qanlı, həm şərəfli**
**Həm qürurlu, həm kədərli.**

**Bir tarix yaz**
**Bir xalqdan yaz**
**Azərbaycan xalqından**
**Onun keçdiyi kədərli yoldan**
**Onun keçdiyi şərəfli yoldan.**

**Bir tarix yaz**
**Elə etki, unudulmasın**
**Səhifələri qoy toz basmasın**
**Şəhidlərim yaddan çıxmasın.**

**Bir tarix yaz**
**Düşməndən qisası alan**
**Qəhrəman oğullardan yaz.**

**Bir tarix yaz**
**Gələcəyə nümunə olan**
**Heç zaman unudulmayan.**

**Bir tarix yaz**
**Qarabağ adlı bir tarix......**

Azərbaycan xalqı illər öncə məcburi şəkildə uzaqlaşmalı olduğu torpaqlarına geri qayıtdı. Bu qələbə uğrunda çox qanlar axıdıldı,çox göz yaşları töküldü. Bu gün bu torpaqlarda quruculuq işləri aparılır və işğaldan azad olunmuş ərazilər inkişaf etdirilir. Bu qalibiyyətə və sevincə görə Azərbaycan Ordusuna hər birimiz təşəkkür edirik. Verdiyimiz itkilər nə qədər ağır olsa da, şəhidlərimizin qanı yerdə qalmadı. Hər birinin qisası alındı.Şəhidlərimizə Allahdan rəhmət diləyirik. Qazilərimizə isə can sağlığı arzulayırıq. Biz bu qələbəyə görə Azərbaycan Ordusunun hər bir əsgərinə borcluyuq. Vətən sağ olsun!



**Küşvərxanım Bağırova,**
**Maliyyə və mühasibat fakültəsinin 414 saylı qrup tələbəsi**

## Vətən müharibəsi – şanlı tariximiz

Çar Rusiyası dövründə ermənilərin Azərbaycanın tarixi bölgəsi olan Qarabağa köçürülməsi ilə xalqımıza qarşı başlayan düşmənçilik siyasəti bu gün də davam etdirilir.

1993-cü ildə dövlət xadimi Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə gəlişindən sonra Azərbaycanda müstəqil dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı. Buna görə də respublikanın siyasi elminin vəziyyətini ifadə edən uzaq siyasət həyata keçirildi.Ulu öndərin uğurlu diplomatiyası sayəsində Ermənistanın hərbi təcavüzünün aradan qaldırılması ilə bağlı problem BMT Təhlükəsizlik Şurasında fikir mübadiləsinə çıxarıldı. Həmin dövrdən ölkəmizdə ordunun inkişafına başlanmış, müxtəlif siyasi partiyaların və komandaların maraqlarına xidmət edən qaçaqmalçı silahlı dəstələr ləğv edilmiş, ordu yaradılmışdır. Eyni zamanda, ölkəmizin çoxsaylı sahələrdə əldə etdiyi nailiyyətlər onun dünya birliyində demokratik və hüquqi dövlət kimi mövqeyini möhkəmləndirir.

Prezident İlham Əliyev Dağlıq Qarabağ mübarizəsinin səbəbləri və mahiyyəti ilə bağlı dünya birliyini davamlı olaraq maarifləndirmiş, respublikamız üçün bu məsələ ilə bağlı beynəlxalq ictimai qiymətin necə dəyişdirilməsini müəyyən etmişdir. Təəssüf ki, dünya birliyi 30 ilə yaxın müddətdə Ermənistanın düşmənçilik strategiyasına qəsdən məhəl qoymadı və təcavüzkarın cəzalandırılması üçün heç bir əməli tədbir həyata keçirmədi.BMT Təhlükəsizlik Şurasının Ermənistan hərbi birləşmələrinin Azərbaycanın zəbt olunmuş ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il icra olunmadan kağız üzərində qaldı.

Sentyabrın 27-də Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev ordumuzun əks-hücuma başlaması üçün əmr verdi.

Düşmənin özünün uydurduğu, reallıqla heç bir əlaqəsi olmayanvə uzun illər təbliğ etdiyi "məğlubedilməz erməni ordusu" bir neçə gün ərzində igid Azərbaycan Ordusutərəfindən dünyanın gözü qarşısında məhv edildi.

Azərbaycan Ordusunun Vətən müharibəsi illərində Şuşa əməliyyatı onun zirvə nailiyyəti idi."Qarabağımızın gözü" kimi tanınan bu şəhəri düşmən 2000-ə yaxın canlı qüvvə və çoxlu hərbi texnika ilə qoruyurdu. Onlar əmin idilər ki, Pənahəli xanın qalası keçilməzdir.Buna baxmayaraq, general Hikmət Mirzəyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri 400 nəfərlik dəstə iləəsas magistraldan deyil,düşmənin heç vaxt düşünməyəcəyi tərəfdən, sıldırım qayalıqları aşaraq şəhərə daxil oldular.Yalnız yüngül silahlarla təmin olunmuş igid döyüşçülərimiz dörd istiqamətdən düşmənin üzərinə hücuma keçərək, əlbəyaxa döyüşdə erməni ordusunudarmadağın etdilər.Bu qələbə Azərbaycanın öz rəqibi üzərində ən böyük qələbəsi idi!

44 gün ərzində xalqımız yüksək səviyyədə birlik nümayiş etdirmişdir. Biz bir daha dünyaya sübut etdik ki, bu torpaqlar əzəli və əbədi Azərbaycan torpaqları olmuşdur. "Dəmir Yumruq" əməliyyatı bir daha göstərdi ki, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!



**Emil Miriyev,**
**Maliyyə və mühasibat fakültəsinin 684 saylı qrup tələbəsi**



**Nərmin Qarayeva,**
**Maliyyə və mühasibat fakültəsinin 464 saylı qrup tələbəsi**



**Nərmin Mustafayeva,**
**UNEC-in Dizayn Məktəbinin 732 saylı qrup tələbəsi**

## Qəhrəmanların yumruğu

Ordumuzun ermənilərin hücumlarına cavab olaraq başladığı Vətən müharibəsi xalqımızın 30 illik həsrətinə 44 gündə son qoydu. Vətənpərvər oğullarımızın erməni təcavüzünü qəhrəmancasına dəf etməsi və əks-hücuma keçərək, düşmənə sarsıdıcı zərbələr endirməsi xalqımızın qələbə əzminin nümayişi oldu.

**Hər kəs Vətən fədaisi oldu o gün...**

Vətən müharibəsi bir daha sübut etdi ki, Azərbaycan Ordusunun hər bir fərdi özünü Vətən uğrunda fəda etməyə və düşmənə sarsıdıcı zərbə vurmağa qadirdir. Gedən döyüşlər bizim hansı iradəyə, hansı hisslərə sahib olduğumuzu göstərdi. Vətən müharibəsinin qəhrəmanlarından biri - mayor Elsevər Hümbətov da öz ordusu, öz xalqı, öz milli mənliyi uğrunda qəhrəmancasına vuruşdu. Bu qəhrəmanlığı yüksək qiymətləndirən Ali Baş Komandan zabiti bir çox hərbi qulluqçularımız kimi 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif etdi.

**"Adi günlərdən biri kimi yaşayacağımız 2020-ci ilin 27 sentyabrı indi tarixdir - Zəfər tariximizin başlanğıcıdır. Həmin tarixdən xalqımıza məxsus olan milli qürur, əyilməzlik kimi keyfiyyətlər tüğyan etdi",** - deyə zabit söhbətə başladı.

Vaxt gələcək 30 ildən bəri inşa edilmiş istehkamları yarıb keçən Azərbaycan Ordusunun əks-hücum əməliyyatları hərb tarixi üzrə mütəxəssislər tərəfindən öyrəniləcək. Şuşanı işğaldan azad edən oğullarımızın şücaəti isə peşəkar hərbçilərin araşdırma mövzusu olacaq. Öz cəsarəti, igidliyi ilə Vətən torpağını azad edən və qətiyyəti ilə düşməni dizə gətirən Azərbaycan Ordusunun fəaliyyətini bütün xalqımız yüksək qiymətləndirir.

Zabit qeyd etdi ki, sentyabrın 27-də ermənilər mövqelərimizi ağır artilleriyadan atəşə tutdular. "Verilən əmr əsasında düşmənin arxasında kəşfiyyat əməliyyatları aparmalı və həmin mövqeləri azad etməli idik. Düşmən o qədər də hündür olmayan yüksəklikdə mövqe tutmuşdu. Yüksəkliyi azad etdikdən sonra digər ərazilərə hücum etmək imkanlarımız daha da asanlaşacaqdı. Ona görə də bu mövqe qoşunlarımız üçün strateji əhəmiyyət kəsb edirdi. Nəhayət, ağır döyüş başladı...

Biz üzərimizdəki güllələr, qumbaralar və silahlarla yüksəkliyə qalxır, bu da işimizi çətinləşdirirdi. Biz erməni postuna yaxınlaşdıqca onlar atəşi daha da sürətləndirir, erməni artilleriyasının atdığı mərmilər sağ-solumuzda partlayırdı. Bəzən mərminin düşəcəyini hiss etsək də, macal tapıb yerə uzana bilmirdik. Çünki həmin vaxt atılan hər addımın hədəfə çatmaq üçün əvəzsiz dəyəri vardı. Artıq şəhidlərimiz və

yaralılarımız var idi... Allahdan şəhidlərimizə rəhmət və qazilərimizə şəfa diləyirəm. Döyüşün gedişində mən ayağımdan və sinəmdən qəlpə yaraları aldım. Yaralandıqdan sonra mənə elə gəlirdi ki, nəfəsim çatmır... Öz-özümə əmr verirdim ki, dayanmaq olmaz, yalnız irəli! Əmrimə əməl edə bilmədim. Gözümü açanda özümü hospitalda gördüm."

"Ən əsası odur ki, bu müharibədə bütün xalq öz rəhbəri ətrafında bir yumruq kimi sıx birləşdi. Qələbəyə doğru inamla irəliləyən qorxmaz, cəsur əsgərlərimiz düşmənin işğal olunmuş torpaqlarımızdakı hərbi hissələrini, istehkamlarını, ön xətt mövqelərini, döyüş texnikalarını və infrastrukturunu, canlı qüvvəsini, cəbhənin dərinliyindəki atəş nöqtələrini, bazalarını darmadağın etdi, kəndlərimizi, strateji yüksəklikləri sürətlə tutdu", - deyə zabit sözünə davam etdi.

Azərbaycan torpaqları qarış-qarış, kənd-kənd işğaldan azad edildi. Uzun illərdən sonra doğma torpaqlarımızda yenidən üçrəngli şanlı bayrağımız ucaldıldı. Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, ordumuzun

şücaəti hesabına qazandıq... Ona görə 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaq.



**Nuranə Nəbiyeva,**
**Maliyyə və mühasibat fakültəsinin 426 saylı qrup tələbəsi**

# Şəhidlər ölməz və heç zaman unudulmaz!

Bəlkə kimsə son dəfə sevdiyinə “səni sevirəm” deyə bilmədi. Bəlkə kimsə sonuncu dəfə “ ana, narahat olma qayıdacam” deyib, qayıda bilmədi. Bəlkə kimsə övladına “narahat olma, mənim balam, ata alacaq sənin üçün” deyib ala bilmədi.

Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə ölümü gözə alan gənclərimiz bu müqəddəs amal uğrunda şəhid olursa, bu, xalqımızın böyüklüyüdür. Şəhid verməyən xalqın mənliyi olmaz. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Bizim xalqımız Vətəninə, torpağına bağlı qəhrəmanlar yetişdirən xalqdır.

İgidlərimiz bunu bir daha sübut etdi. Qurbanov Saleh, Mehbalı Fərid, Bədəlov Cavidan, Fətullayev Rəfail, Əhmədov Səbuhi və Vətən uğrunda özünü fəda edən digərləri... Mənə ən çox təsir bağışlayan şəhid Əhmədov Səbuhidir. Şəhid Səbuhi kiçik yaşlarında ata-anasını itirmiş, ailə sevgisindən məhrum olmuşdur. Ona Vətən sevgisini xüsusi aşılayan olmamışdır. Bu halda belə o, vətən sevgisi ilə yanıb tutuşmuş, gənc yaşında həyatının ən gözəl çağlarını və ən əsası canını fəda edərək anamız Vətən uğrunda şəhid olmuşdur. Şəhid Səbuhi, sənin ailən olmasa da, Azərbaycan xalqı sənin həm anan,həm atan,həm qardaş, həm də bacındır. Və Azərbaycan xalqı olaraq sizinlə fəxr edirik! Sizi hər zaman qəlbimizdə yaşadacağıq.



**Rüqəyyə Mirzəyeva,**
**Maliyyə və mühasibat fakültəsinin 424 saylı qrup tələbəsi**




# Qarabağ rəqəmsal dünyada

Yeni bir inqilab artıq dünyaya gözlərini açıb. Sayca dördüncü sayılan bu sənaye inqilabı gəlişi ilə birlikdə təkcə dünyanın böyük şirkətlərini deyil, eyni ilə böyük dövlətləri də hərəkətə keçirməyi bacarmışdır.Qısa adı ilə “Sənaye 4.0” rəqəmsallaşmanı, texnologiyaların birləşməsini, ən əsası isə rəqəmsal və bioloji dünyalar arasındakı sərhədlərin qaldırılmasını əks etdirir. Bu inqilabın böyüklüyünü vurğulamaq üçün misal olaraq “Metaverse”dən danışa bilərik. İnqilabın baş rollarından biri olan və “Metaverse” adlanan bu rəqəmsal dünya 2021-ci ildə 57 milyard, 2022-ci ilin sadəcə ilk 5 ayında isə 120 milyard dollardan daha çox investisiya alıb. Beynəlxalq səviyyədə 3.400 istifadəçi və 450 üst sinif liderin iştirak etdiyi anketin nəticələri əsasında “Metaverse”də dəyər əmələ gətirmək” adlı hesabatdakı, sektoral əsaslara söykənən bəzi analiz və proqnozları qısaca sizə təqdim etmək istəyirəm: hesabatda Metaverse fərqli dünyaları birbirinə bağlayan, axıcı bir rəqəmsal dünya olaraq müəyyən edilir. Alternativ valyuta vahidləri ilə ticarətin aparılacağı, artırılmış reallığın bir çox sahədə istifadə olunacağı “Metaverse”nin daha da çox şeyi əhatə edəcəyi və böyük olacağı vurğulanır. Təklif edirəm ki, biz də bu dünyaya addım ataq. Özüdə “Qarabağ” adı altında. Bəs, bunu necə edəcəyik?Təbii ki, gəncləri bu yöndə hərəkətə gətirəcək həvəsləndirmələr ilə. Misal olaraq söyləyə bilərəm ki, bu rəqəmsal dünyada NFT (Non-Fungible Token) yəni “dəyişməz pul” anlayışı var ki, 2021-ci ildə artıq bu bazar 41 milyard dollar həddinə kimi dəyər qazanmağı bacarmışdı.Bu bazarı əmələ gətirən şeylər isə nə qədər qəribə olsa da, alıcısının heç vaxt toxuna bilməyəcəyi, evinin divarını bəzəməyəcək olan rəqəmsal sənət əsərləridir. Azərbaycan dövləti də gənclərə dəstək olaraq,“ Qarabağ mövzusunda ən yaxşı NFT” başlığı altında müsabiqə təşkil edə vəqalib gələn əsərlərlə dünyanı çalxalayan rəqamsal aləmə ilk addımlarını ata bilər. Digər bir təklif isə “Qarabağa qayıdış”ı real dünya ilə yanaşı, həm də rəqamsal dünyada etməkdir.

Azərbaycan da bu sahədə fəaliyyət göstərən yerli şirkətləri həvəsləndirəcək addımlar ata bilər. Hər hansısa yerli şirkətin quracağı interaktiv dünyada alına və satıla bilməyəcək ərazi olaraq Qarabağımız da özünə rəqəmsal şəkildə yer tapar.

Acı təcrübələrimizdən bəlli olduğu kimi, Azərbaycan yalnız öz gücü sayəsində illərdir dünyanın ədalətindən yan keçən zülmə son qoya bildi. Əgər biz bu gücün davam etməsini və artmasını istəyiriksə, mütləq olaraq “Sənaye 4.0”-la ayaqlaşmalı, yeni doğulmuş inqilabın beşiyinə çevrilməliyik.



**Şamil Rəhmanov,**
**Mühəndislik fakültəsinin 360 saylı qrup tələbəsi**

# Şəhidlər hər zaman qəlbimizdə yaşayacaq!

Dünya ölkələrinin tarixində bir çox müharibələr, işğallar, geri qayıdışlar və qələbələr baş vermişdir. Azərbaycanın şanlı tarixinə 10 noyabr günü qızıl hərflərlə daxil oldu. Belə ki, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi və düşmən məğlubiyyətini etiraf edərək ağ bayraq qaldırdı.

Düşmənin ağ bayraq qaldırması ilə yanaşı, uzun illərdir işğalda olan ərazilər də öz həqiqi sahiblərinə qayıtdı. Buna qədər 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edilmişdisə, Ermənistanın məğlubiyyətini etiraf etməsindən sonra qarşıdakı 20 gün ərzində Ağdam, Kəlbəcər və Laçın rayonlarından işğalçı qoşunların çıxarılması təmin edildi.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiyaya razılığını verdi. Halbuki Ermənistan hakimiyyəti Azərbaycanın dəmir yumruğunu öz üzərində hiss etməyənə qədər torpaqları geri qaytarmaqla razılaşmır, Şuşanı qondarma rejimin paytaxtı etmək istəyir və Azərbaycana qıcıq yaradacaq addımlar atırdı. Ermənistanın 30 il ərzində yaratdığı ordu sadəcə 44 gün tab gətirdi və beləliklə, dünya ictimaiyyətində Ermənistan ordusu haqda yaranan yenilməzlik mifi puç oldu. Azərbaycan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə haqq mübarizəsinə qalxdı və düşməni “iti qovan kimi” öz ərazilərindən çıxardı. Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması doktrinasında ciddi dəyişikliklərə səbəb olacaq. Yüksək dağlıq şəraitdə həyata keçirilən Şuşanın azad edilməsi əməliyyatı Azərbaycanın hərb tarixinin ən parlaq səhifəsidir.

Bu müddət ərzində Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycan rəhbərliyinə diplomatik və siyasi təzyiqlər göstərildi. Prezident İlham Əliyev qəti siyasi iradəsini nümayiş etdirdi, bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək, onları dəf etdi, öz prinsipial mövqeyindən dönmədi. Prezident İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi.

Bəzi ölkələr işğalçıya təzyiq etmək, zalımı dayandırmaq və sülh, əmin-amanlıq yaratmaq əvəzinə, haqq mübarizəsi aparan Azərbaycana təzyiqlər göstərir, ölkəmizin öz torpaqlarını azad etmək və məcburi köçkünləri üçün yaşayış yerinin təmin olunması uğrunda apardığı mübarizəni dayandırmaq istəyirdi. Lakin Azərbaycan rəhbərliyinin göstərdiyi iradə ölkəmizin nə qədər güclü və qətiyyətli olduğunu nümayiş etdirdi.

**Maliyyə və mühasibat fakültəsinin 416 saylı qrup tələbələri**



**Xəyalə Mustafayeva,**



**Tahirə Həsənzadə**

# Fəxr edirəm ki, Azərbaycanlıyam!

Vətən adı çəkiləndə,dalğalanan bayraq görəndə,çalınan himn sədaları eşidəndə, əminəm ki, hər birimizin gözləri dolur. Bunlar ən ali hisslərdir. “Ulu Vətən-Azərbaycan.” Yazılışı,səslənişi belə ayrı bir qürur verir. Bu vətəndə bir tarix yazıldı,hansı ki əsrlərlə unudulmayacaq tarix. Hansı ki artıq 2 ildir bütün dünyaya səs salmış tarix. 30 illik həsrətin,kədərin,utancın sona çatdığı tarix. Bütün azərbaycanlıların illərlə gözlədiyi günlər idi. Azərbaycan xalqının bir olduğu,o milliyyətçi ruhu dirçəldən,içimizdə vətən sevdasının büruzə etmə imkanını yaradan o günlər. Hansı ki illər keçsə belə, bu millətin yaddaşından silinməyəcək,əbədi olaraq nəsildən-nəsilə danışılacaq o möhtəşəm qələbənin başlanğıcı olan həmin günlər. 44 günlük,amma əslində illərdir davam edən o mübarizə. Analar,atalar isə sanki övladlarını həmin günlər üçün böyütmüşdülər. Gələcəkdə gözünü belə qırpmadan canını,qanını vətənə qurban vermək üçün böyütmüşdülər. İllər öncə, məktəb vaxtı torpaqlarımızın işğal olunduğu tarixi əzbərləyənlər gün gəldi o tarixi unutdurub, yeni bir çağ yaratdılar. Minlərlə igidimiz tək çağırışla ailəsini,övladını bizlərə əmanət edib,geriyə baxmadan Ana Vətəni qorumağa getdilər,heç çəkinmədən şəhadət şərbətini içdilər. Biz bütöv olaq deyəonlar yarım qaldı. Bütün şəhidlərimizə Allahdan rəhmət,geridə qalan, fiziki və mənəvi yaralı qazilərimizə şəfa,ordumuza və Ali Baş Komandanımıza güc,qüvvət diləyirik. Haqları ödənməz,nə etsək azdır,onların tökdükləri qanlar,itirdikləri canlar,geridə qoyduqları yarımçıq həyatlar qarşısında nə etsək, borclarını ödəyə bilmərik. Onların ailələri,xatirələri isə ömürlük əmanət qaldı bizlərə. O əmanət ki, son nəfəsimizə qədər sahib çıxmalıyıq.

Biz gənclərin isə üzərinə düşən vəzifə onların qəhrəmanlıqlarına layiq vətən övladları olmaqdır. İstər ictimai,istər sosial həyatımızda hər zaman qəhrəmanlarımızı örnək alaraq hərəkət etməliyik. Çalışdığımız qədər vətənimizi,tariximizi,mədəniyyətimizi dünyaya çatdırmalı,Azərbaycan xalqının necə güclü və məğrur olduğunu hər kəsə tanıtmalıyıq.

**Mənim yoluma bax,əzəldən haqdır,**
**Haqqı gücsüz bilib gülmək günahdır.**
**Gələcək cəzanı çəkməyin vaxtı,**
**Hesabı axırda kəsən millətəm!**

**Çəkil torpağımdan, ey yağı düşmən,**
**Mən şeytan ümidini üzən millətəm!**
**Dünyanı üstümə qaldırdın,yetər,**
**Dünyanın dərdinə dözən millətəm!**

Başından çəkilməyən o qara buludlara rəğmən, hər zaman məğrurdur mənim vətənim,mənim millətim. Dünyaya ikinci dəfə gəlmə şansım olsaydı, yenidən Azərbaycan vətəndaşı olmaq istəyərdim. Və Mən fəxr edirəm ki Azərbaycanlıyam!



**Türkan Əlizadə,**
**Mühəndislik fakültəsinin 360 saylı qrup tələbəsi**







*Rəsmlərin müəllifi "Mühəndislik" fakültəsinin 4-cü kurs tələbəsi, qr. 364 Elmin Əskərzadə*

*Müəlliflər Zəfər Gününə həsr edilən mövzuların nəşrinə göstərdiyi köməyə görə Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini, UNEC-in “Maliyyə və audit” kafedrasının dosenti Elşad Səmədzadəyə təşəkkürlərini bildirirlər.*

# Ильхам Алиев: Отношения между странами Лиги арабских государств и Азербайджаном имеют особую динамику развития



1 ноября в столице Алжирской Народной Демократической Республики городе Алжир состоялся 31-й Саммит Лиги арабских государств.
По приглашению Президента принимающей Саммит Алжирской Народной Демократической Республики Абдельмаджида Теббуна в церемонии открытия мероприятия в статусе почетного гостя принял участие Президент Азербайджанской Республики Ильхам Алиев.
Президент Ильхам Алиев выступил на Саммите.
Он поздравил Президента и правительство Алжира, весь алжирский народ с Днем свободы и сказал:
- Для меня большая честь принимать участие в этом представительном Саммите и продемонстрировать единство между нашими странами. Посещение Алжира в столь особый день, в День национального освобождения, в День национального достоинства вызывает у меня особое удовлетворение.
Сегодня я почтил память шехидов, посетил Мемориал шехидов, а также Музей борцов за независимость и увиденное очень подействовало на меня. Мир никогда не должен забыть насилие, массовую жестокость, совершенные Францией против алжирского народа. На протяжении более ста лет Франция вела ужасную войну против алжирского народа. Эта война привела к гибели полутора миллионов алжирцев. Вспоминая сегодня эту трагедию, мы должны приложить все усилия для предотвращения таких трагедий в будущем.
Отношения между Лигой арабских государств и Азербайджаном имеют особый характер. Этим летом мне довелось принимать в Баку генерального секретаря господина Абуль Гейта. У нас состоялся обстоятельный разговор о нашем будущем сотрудничестве.
Сегодня я принимаю участие в Саммите в качестве председателя Движения неприсоединения, но в то же время у нас очень хорошие отношения со странами-членами Лиги арабских государств. Уверен, что в ближайшем будущем наше сотрудничество расширится, приобретет новый характер и новую динамику.
Азербайджан так же, как Алжир пострадал от оккупации. Наши земли 30 лет находились под армянской оккупацией.
Азербайджан играет важную роль на международной арене как председатель Движения неприсоединения. Объединяющее 120 стран Движение неприсоединения является вторым после ООН крупнейшим международным институтом. Азербайджан с 2019 года является председателем этого института и мы были избраны единогласно всеми государствами-членами. Наше председательство вновь единогласно было продлено до конца 2023 года. Мы снова видим в этом оценку нашей политики. Наше председательство пришлось по времени на период COVID-19 и мы были очень активными в этом вопросе. В связи с коронавирусом Азербайджан оказал финансовую и гуманитарную помощь более 80 странам. Два года назад Азербайджан положил конец продолжавшейся около 30 лет оккупации Арменией 20 процентов наших земель. Несмотря на резолюции и решения ведущих международных структур, Армения, игнорируя все эти решения и резолюции, продолжала незаконно удерживать под оккупацией почти 20 процентов территории Азербайджана. Совет Безопасности ООН принял 4 резолюции, требующие незамедлительного и безоговорочного вывода армянских войск с наших территорий. Однако эти резолюции никогда не выполнялись. Поэтому Азербайджан как страна, пострадавшая от несправедливости и оккупации, ведет активную деятельность для того, чтобы внести вклад в дело объединения подходов в отношении конфликтов. Ко всем конфликтам нужно подходить с одинаковой позиции. В подходах к конфликтам не должно быть двойных стандартов. Оккупацию надо называть оккупацией. Два года назад Азербайджан, как я отметил, положил конец этому конфликту. А сейчас мы восстанавливаем наши города и села. Мы приступили к реализации программы под названием «Великое возвращение». Мы делаем это за счет своих ресурсов. Мы сами восстановим свои земли, и процесс уже идет. Мы вновь видим солидарность наших братьев из государств-членов Лиги арабских государств, видим поддержку в международных институтах и очень признательны за это.

***

Отметим, что Лига арабских государств была основана 22 марта 1945 года Египтом, Ираком, Иорданией, Ливаном, Саудовской Аравией, Сирией и Йеменом. В настоящее время в организацию входят 22 государства. Штаб-квартира организации находится в столице Египта Каире. Турция имеет в организации статус постоянного наблюдателя.

# «Карабахский конфликт – это уже история, он был решен два года назад, поэтому в этом контексте обсуждать нечего»



Об этом заявил президент Азербайджана Ильхам Алиев на встрече со своим российским коллегой Владимиром Путиным в Сочи.
«Хочу выразить Вам благодарность за ту роль, которую Вы сыграли в урегулировании Карабахского конфликта. Два года назад была подписана трехсторонняя декларация, положившая конец многолетнему конфликту. Сейчас пришло время говорить и действовать в направлении нормализации отношений между Азербайджаном и Арменией, и, конечно же, мы высоко ценим Вашу высокую роль в этом вопросе. Сегодняшняя трехсторонняя встреча, которая последует немного позже, подобные встречи уже проводились и давали импульс процессу нормализации. Азербайджан относительно недавно выдвинул пять основных принципов, на основе которых азербайджано-армянские отношения должны быть нормализованы. Это все фундаментальные принципы международного права, и я думаю, что на этой основе можно достичь нормализации. Карабахский конфликт – это уже история, он был решен два года назад, поэтому в этом контексте обсуждать нечего, а нормализация армяно-азербайджанских отношений – это тот формат, который требует серьезных шагов. В связи с этим мы рассчитываем и дальше на Вашу личную роль, и роль России в деле достижения этих целей», - сказал Алиев.

# ЦБ Азербайджана обнародовал объем операций в рамках торговой системы Bloomberg



Объем межбанковских необеспеченных сделок через специальную платформу в рамках торговой системы Bloomberg в Азербайджане в сентябре-октябре 2022 года составил 2,214 миллиарда манатов.
«В сентябре в рамках этой платформы между банками было осуществлено 69 сделок на 788 миллионов манатов, а в октябре 124 сделки на сумму 1,426 миллиарда манатов. 97 процентов данных сделок носило краткосрочный характер (1-3 дня). В сентябре на межбанковском рынке РЕПО была заключена 21 сделка на 48 миллионов манатов, из которых 52 процента были рассчитаны на срок 5-9 дней, а в октябре 20 сделок - на 65 миллионов манатов», - говорится в сообщении ЦБА.
Напомним, что с сентября 2022 года ЦБ запустил в новой конфигурации инструменты денежной политики, в том числе в рамках торговой системы Bloomberg была создана специальная платформа для необеспеченных сделок.

# ЦАРЭС стремится расширить сотрудничество с Азербайджаном в энергосекторе

Программа ЦАРЭС (Программа центрально-азиатского регионального экономического сотрудничества) стремится расширить сотрудничество с Азербайджаном в энергетическом секторе.
Об этом сказал Trend в понедельник директор Института ЦАРЭС Сайед Шакил Шах.
По его словам, в условиях нынешнего энергетического кризиса в Европе Азербайджан становится одним из самых важных игроков на рынке.
«Азербайджан является крупной страной-экспортером топлива. Программа ЦАРЭС готова работать над созданием региональных энергетических систем для нефте- и газопроводов, а также для электросетей. Некоторые из этих проектов уже работают. Двигаясь вперед, с увеличением инвестиций в энергетический сектор Азербайджана, создание этих систем могло бы послужить гарантией для стран региона в случае таких энергетических потрясений, которые мы наблюдаем сегодня», - сказал Сайед Шакил Шах.
Он отметил, что Азиатский банк развития вместе со Всемирным банком намерены предоставить больше финансирования и помощи для развития энергетического сектора Азербайджана.

# В 2023 году размер среднемесячной пенсии в Азербайджане возрастет

Ожидается, что к концу 2023 года размер среднемесячной пенсии в Азербайджане повысится на 52,6 маната, или на 14,2 процента по сравнению с началом года и составит 422 маната. Об этом говорится в опубликованном сегодня заключении Счетной палаты по проекту бюджета Государственного фонда социальной защиты населения Азербайджана на 2023 год. Отмечается, что в первом полугодии текущего года пенсии по возрасту выросли на 37,7 маната (10,4 процента), по инвалидности - на 31,8 маната (10,9 процента), а пенсии в связи с потерей кормильца - на 29,8 маната (10,3 процента), что произошло за счет увеличения минимального размера пенсии, индексации страховой части трудовых пенсий и выплаты материальной помощи. К концу следующего года, как прогнозируется, размер среднемесячной пенсии составит 422 маната, увеличившись по сравнению с началом года на 52,6 маната, или на 14,2 процента. Принимая во внимание, что, согласно правовым актам, индексация проводится в соответствии с темпами роста среднемесячной заработной платы, можно отметить, что предусмотренные темпы роста среднемесячной суммы пенсий соответствуют росту среднемесячной заработной платы на конец текущего года на уровне 14,5 процента по сравнению с началом текущего года.

# Денежная база в Азербайджане выросла за год



Денежная база по итогам октября 2022 года составила 16,671 миллиарда манатов, что на 14 процентов, или 2,05 миллиарда манатов превышает показатель аналогичного периода прошлого года.
Об этом сообщили в Центральном банке Азербайджана.
Денежная база в Азербайджане в октябре 2021 года составила свыше 14,621 миллиарда манатов.
Отметим, что денежная база включает в себя наличные и свободные банковские и обязательные резервы коммерческих банков, находящиеся в обращении.

# Avropanın anbarlarında qaz ehtiyatları 95 faizə çatıb



Oktyabr ayında Avropanın yeraltı anbarlarında qaz ehtiyatlarının səviyyəsi təxminən 95 faizə çatıb.

Bu barədə Gas Infrastructure Europe assosiasiyasının məlumatında deyilir. Məlumata görə, ötən ay Avropanın qaz anbarlarında mavi yanacağın həcmi 8,8 milyard kubmetr artıb. Bu, 2011-ci ildən bəri oktyabr ayı üçün rekord göstəricidir. Eyni zamanda, oktyabrda anbarlardan qazın çıxarılması son üç ildə qeydə alınan göstəricidən aşağı olub - cəmi 1,9 milyard kubmetr. Belə dinamika Avropa İttifaqının ərazisində oktyabr ayı üçün xarakterik olmayan isti hava şəraiti ilə izah olunur.

Oktyabrın 31-nə olan məlumata görə, Avropanın qaz anbarlarında yanacaq ehtiyatları 94,76 faizə çatıb ki, bu da son beş ilin analoji dövrü ilə müqayisədə 5,8 faiz çoxdur. Hazırda qitənin anbarlarında təxminən 102,3 milyard kubmetr qaz var.

Bundan öncə Avropa İttifaqı ölkələri 2022-2023-cü illərin qışına qədər yeraltı qaz anbarlarını ən azı 80 faizə, sonrakı bütün qış mövsümləri üçün isə 90 faizə qədər doldurmağı öhdələrinə götürmüşdülər.

Portuqaliya, Belçika və Fransada qaz anbarları 100 faiz dolub. Danimarkada bu göstərici 99,63 faiz, Almaniyada 98,91 faiz, Polşada 98,79 faiz, İspaniyada 97,7 faiz, Rumıniyada 96,55 faiz, İtaliyada 95,45 faiz, Niderlandda 91,61 faiz, İsveçdə 92,94 faizdir.

Ən aşağı göstəriciyə malik beş Avropa ölkəsinə isə Avstriya (92,82 faiz), Slovakiya (90,76 faiz), Bolqarıstan (90,11 faiz), Macarıstan (85,51 faiz) və Latviya (57,49 faiz) aiddir.

# "Fitch Solutions": Neftin orta qiyməti 100 dollardan aşağı düşəcək

"Neft və qaz üzrə komandamız 2023-cü ildə neft qiymətlərinin 105 USD/barreldən orta hesabla 100 USD/barelə kimi azalacağını proqnozlaşdırıb".



Bunu müsahibəsində "Fitch Solutions" beynəlxalq reytinq agentliyinin Avropa ölkələri üzrə risk rəhbəri Anvita Basu deyib.

O qeyd edib ki, neft qiymətləri bu gözləntilərdən də aşağı düşə bilər: "Avrozonada iqtisadi tənəzzül (2023-cü ildə 0,3% kiçilmə nəzərdə tutulur) və ABŞ iqtisadiyyatı üçün eyni dərəcədə optimist olmayan proqnozumuzu (2023-cü ildə 0,90% artım) nəzərə alsaq, neft qiymətləri daha da düşə bilər".










# Sazişin dayandırılması ilə buğdanın qiyməti yüksəlir

Rusiyanın Qara Dəniz Taxıl Sazişindən çıxması qlobal tədarüklə bağlı narahatlıqları artırdığı üçün Çikaqo Ticarət Birjasında (CBOT) buğda fyuçersləri 5,4 faiz artaraq 8,7 dollara çatıb.

Buğdanın buşelinin qiyməti səhər saatlarında artaraq 8,9 dollara qalxıb. Sonra qiymət 8,7 dollarda stabilləşib.

Qarğıdalı qiymətləri 2,2 faiz artaraq 6,96 dollar/buşelə, soya isə 3 faiz bahalaşıb.

Rusiya-Ukrayna müharibəsinin tədarük problemlərini gündəmə gətirməsi və enerji qiymətlərinin artmasının təsiri ilə buğdanın qiyməti mart ayında 13,6 dollara yüksələrək beynəlxalq bazarlarda rekordlar qırmışdı.

Rusiya və Ukrayna dünyanın ən böyük buğda tədarükçüləri arasında olduğundan, taxıl bazarları Moskvanın Kiyevə qarşı səkkiz aylıq müharibəsində baş verən hadisələrə həssasdır.

Rusiya Müdafiə Nazirliyi oktyabrın 29-da Ukraynanın ilhaq edilmiş Krımın Sevastopol şəhərində Rusiya hərbi gəmilərinə və mülki gəmilərinə hücum etdiyini və bununla əlaqədar olaraq sazişdən çıxdığını bildirib. "Rusiya tərəfi terror aktını nəzərə alaraq, Ukrayna limanlarından kənd təsərrüfatı məhsullarının çıxarılmasına dair sazişin həyata keçirilməsində iştirakını dayandırıb", - məlumatda deyilir.

Qlobal ərzaq böhranının həlli üçün Türkiyənin koordinasiyası ilə həyata keçirilən Qara Dəniz Taxıl Sazişi iyulun 22-də İstanbulda prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Ukrayna, Rusiya, Türkiyə və Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında imzalanıb.

# Türkiyə Mərkəzi Bankı ilin sonuna inflyasiya proqnozunu yüksəldib

Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı (TCMB) 2022-ci ilin son inflyasiya hesabatını dərc edib.



Hesabatda 2022-ci ilin sonu üçün inflyasiya proqnozunu 65,2 faizə qaldırıb. Əvvəlki hesabatda TCMB-nin il sonu gözləntisi 60,4% idi.

Mərkəzi Bank qeyd edib ki, geosiyasi risklər qlobal təchizat zəncirlərinə mənfi təsir göstərir. Qlobal miqyasda maliyyə şərtlərinin sərtləşdirilməsi tendensiyası artır. Gələn il qlobal risklərin davam edəcəyi və dünya iqtisadiyyatına daha çox təsir edəcəyi gözlənilir.

Əmtəə qiymətləri üçüncü rübdən etibarən azalmağa başlayıb. Əmtəə qiymətlərinin aşağı düşməsinin inflyasiyanın səngiməsinə təsir edəcəyi gözlənilir.

Qlobal inflyasiyanın artması tendensiyası var. 2022-ci il üçün inflyasiya gözləntiləri bir çox ölkə üçün yuxarıya doğru yenilənib və bir müddət davam edəcəyi gözlənilir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500